UOT -37.01

# ARİF MİRZƏYEVİN YARADICILIĞININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

***Allahverdiyeva Raziyyə Qiyas qızı***
*Gəncə Dövlət Universiteti*
*Tunzalehuseyinova70@Gmail.Com*

**Xülasə:** *XI-XV əsr Azərbaycan memarlığının üçüncü əhəmiyyətli məktəbi olan Şirvan-Abşeron memarlığı üçün səmərəli bir dövrdür. Şirvan dövlətinin ərazisi təbii inşaat daşı ilə zəngin olduğu üçün bu ərazidə əhəng daşı bir inşaatvasitəsi və binaların bəzəyində oyma şəklində tətbiq edilən yeganə material olmuşdur. Buna görə də Şirvan-Abşeron memarlığının üslub xüsusiyyətləri daş və onun üzərində tətbiq edilən ornamentlə formalaşmışdır. Bu dövrün ən qiymətli abidələri Bakıda içərişəhərdə yerləşən abidələrdir.*

**Açar sözlər:**memarlıq, abidələr, oyma bəzəklər, üslub
**Ключевые слова:**архитектура, памятники, резные украшения, стиль
**Keywords:** architecture, monuments, carved ornaments, style

XI-XV əsr Azərbaycan memarlığının üçüncü əhəmiyyətli məktəbi olan Şirvan-Abşeron memarlığı üçün də səmərəli fəaliyyət dövrü idi. Şirvanşahlar dövlətinin Kəsranilər sülaləsi zamanı möhkəmlənməsi və beləliklə, inşaat üçün əlverişli şərait yaranması yerli memarlıq məktəbinin çiçəklənməsi üçün zəmin yaradır. Şirvan dövlətinin ərazisi təbi inşaat daşı ilə zəngin olduğu üçün bu ərazidə hələ qədin dövrdən başlayaraq əhəng daşı bir inşaat vasitəsi və binaların bəzəyində oyma şəklində tətbiq edilən yeganə material idi.

Təbiidir ki, Şirvan-Abşeron memarlığının üslub xüsusiyyətiəri daş və onun üzərində tətbiq edilən ornamentlə oymanın birlikdə təsiri əsasında formalaşmışdır. Gözəl yerli daşın diqqətlə yonulması və onun səthinin hamarlanması Şirvan tikililərinin hörgüsünə xüsusi bir görkəm verir. Belə hörülmüş səthlərin üzərində yerləşdirilən zərif daş oymaları kompozisiyan gözəçarpan nöqtələrində mər- kəzləşdirilir və öz bədiiliyilə diqqəti cəlb edir. Şirvan memarlığının belə bir istiqamətdə inkişafı burada kompozisiyaların sadəliyini müəyyənləşdirmiş, əsas diqqət isə ayrı-ayrı ünsürlərin dürüst şəkildə işlənməsinə verilmişdir.

Bu dövrün ən qiymətli abidələrindən biri Bakıda. İçərişəhərdə yüksələn **Sınıqqala minarəsidir.** Üzərindəki kitabədən *1078-ci ildə ustad Əbubəkr oğlu Məhəmməd* tərəfindən tikildiyi məlum olan bu minarənin ilk məscidi zəmanəmizə qədər qalmamışsa da, minarə özü dini memarlığın inkişafını izləmək cəhətdən olduqca qiymətlidir.

Sınıqqala Azərbaycan memarlığında ən qədim minarədir. Minarənin quruluşunda qala tikintilərinə məxsus cəhətlər görünür. Onun gövdəsi olduqca geniş olduğundan müdafiə bürclərini xatırladır. Lakin memar minarənin gövdəsini memarlıq qanunları ilə incələdir, onun şərəfəsinin oturacağını təşkil edən stalaktitləri diqqətlə işləyir, şərəfənin balkon sürahisini daşdan oyma həndəsi ornamentlə örtür. Nəticədə dolğun və klassik bir tikinti yaranmış olur. Bu yeni memarlıq tikintisinin memar tərəfindən belə mükəmməl şəkildə yaradılması bizə Abşeron və Şirvanda Sımqqaladan daha əvvəl də minarələr tikildiyini irəli sürməyə haqq verir. Görünür ki, Şirvanda minarə inşaatı müəyyən inkişaf yolu keçmiş və nəticədə **XI** əsrdə Sınıqqala kimi mükəmməl bir minarə yaratmaq mümkün olmuşdur.

Kitabədə abidənin ustad Əbubəkr oğlu Məhəmmədin sifarişi ilə tikildiyi bildirilir. Burada ustad Məhəmməd binanın sifarişçisi kimi göstərilmişsə də, ehtimal etmək olar ki, binanın memarı da bu şəxsin özüdür. Çünki “ustad” sözü Məhəmmədin sənətkar olduğunu aydm göstərir. O biri tərəfdən ustad adlanan bir sənətkann abidənin sifa- rişçisi olaraq çıxış etməsi bu sənətkann yüksək ictimai (dini) mövqe tutduğunu da göstərir.

**Qız qalası.** Nəzərdən keçirdiyimiz dövrün və ümumiyyətlə, Azərbaycan memarlığının ən görkəmli abidələrindən biri Bakıda, İçərişəhərdəki Qız qalası adı ilə şöhrət tapmış binadır. Bu abidə İçərişəhərdə orta əsr Bakısının bir simvolu kimi yüksəlir. Eyni zamanda yaradıldığı dövrdə müdafiə inşaatının yüksək səviyyədə olduğunu aydın göstərir. Qız qalası qüdrətli, əzəmətli bir müdafiə tikintisi olmaqla bərabər ümumi həcm quruluşunun, nisbətlərinin ve nəhayət, hörgüsünün düşünülmüş şəkildə işlənməsi cəhətdən də yüksək səviyyəli memarlıq bədii qiymətə malik bir tikintidir.

Qalanın adının əfsanəvi hadisələrlə əlaqələndirilməsi haqqında müxtəlif mülahizələrə burada yer verməyə ehtiyac yoxdur. Orasını qeyd etməklə kifayətlənmək lazrm gəlir ki, Qız qalası şəklində müxtəlif Şərq ölkələrində, türkdilli xalqların yaşadığı ölkələrdə, xeyli miqdarda qala tikintiləri məlumdur.

Bu ad, şübhəsiz ki, bir mənanı ifadə edir. Qüdrətli, sarsılmaz qalalanın yenilməz, alınmaz olduğu anlayışını xalq çox zaman bakirə mənasında “qız” termini ilə ifadə edir. Beləliklə, Qız qalası yenilməz, fəth edilməz mənasını daşımışdır.

Qız qalası yerli əhəng daşından hörülmüş qüdrətli bir tikilidir. Abidə iki əsas hissədən ibarətdir: Qız qalasının hündürlüyü giriş tərəfdən 32 m, dəniz tərəfdən isə 35 m bərabərdir. Divarların qalınlığı kürsü hissəsində 5 m olub, yuxarıdan isə 4 m qədər azalır. Qalaya özünəməxsus görkəm verən çıxıntı hissəsinin Azərbaycan memarlığında analoqu yoxdur. Qız qalasının əsas silindrik hissəsi daxildən yastı günbəzlərlə 8 mərtəbəyə bölünmüşdür. Bu mərtəbələrdən ancaq birincisi hündürdür. Birinci mərtəbədən ikinci mərtəbəyə daxil olmağı çətinləşdirmək üçün birinci mərtəbə ilə ikinci mərtəbə arasında pilləkən yoxdur. İkinci mərtəbədən başlayaraq pillələr divarın qalınlığında yerləşdirilmişdir. Mərtəbələr pillələr vasitəsilə əlaqələndirilmişdir. Hesab edilmişdir ki, Qız qalasının səkkiz mərtəbəsində 250-yə qədər adam yerləşdirmək olar. Qız qalasının daxili quruluşunda diqqəti cəlb edən bir xüsusiyyət mərtəbələrin saxsı boru vasitəsilə vertikal istiqamətdə əlaqələndirilməsidir. Bu saxsı borunun kürəbənd məqsədi üçün və yaxud mərtəbələr arasında danışıq üçün istifadə edilməsi haqqında fikirlər vardır.

**Şirvanşahlar Sarayının tarixindən**

Azərbaycanın orta əsr memarlığının şah əsərlərindən biri olan Şirvan hökmdarlarının iqamətgahı Şirvanşahlar Sarayı Kompleksi Bakının tarixi özəyi olan «İçəri şəhər»də dominant rol oynayır. Şirvanşahlar dövləti VI əsrin I yarısında Azərbaycanın şimali-şərq bölgəsində XVI əsrədək hökm sürmüş ən böyük feodal dövləti olmuşdur. Onun sərhədləri şimaldan Samur çayı, Dərbəndlə, şərqdən Xəzər dənizi, cənubdan Kür çayı, qərbdən isə Şəki, Gəncə ilə əhatələnmişdi.

Bu dövlətin güclü, qüdrətli, son dərəcə savadlı hökmdarları olmuşdur. Axsitan, Fəriburz, Şeyx İbrahim, Xəlilullah və digərləri görkəmli diplomat və dövlət başçıları olmaqla bərabər, həm də bacarıqlı sərkərdələrdi.

Şirvan dövlətinin ilk paytaxtı Şamaxı şəhəri olmuşdur. Artıq XIII-XV əsrlərdə Şamaxı beynəlxalq ipək ticarətində əhəmiyyətli mövqe tuturdu. «Talaman ipəyi» adıyla məşhur olan Şirvan ipəyi Kiçik Asiyaya, Suriyaya, İtaliyaya, Çinə, İngiltərəyə və bir çox başqa ölkələrə göndərilirdi.

Seysmik zonada yerləşən Şamaxı 1192-ci ildə zəlzələdən dağıldıqdan sonra Şirvanşah I Axsitan Bakı şəhərini öz iqamətgahına çevirmiş və Bakı həmin vaxtdan Şirvanşahlar dövlətinin II paytaxtı olmuşdur.

İki şahın – Şirvanşah İbrahimin və onun oğlu Şirvanşah I Xəlilullahın dövründə saray şairi olmuş Bədr Şirvaninin yazdığına görə, Şirvanşahlar dövlətinin bayrağı qızılı rəngdə olmuşdur.

İki şir və onların arasında bir öküz başının təsviri isə Şirvanşahlar dövlətinin gerbidir. Təsvirdəki şirlər Şirvanşahlar dövlətinin güc və qüdrətinin, öküz başı isə ölkədəki bolluğun rəmzi idi.

Hal-hazırda saray kompleksinin ümumi sahəsi 0.7 ha-dır. Bütün Yaxın Şərqdə özünün analoquna malik olmayan bu kompleksdə 52 sayda otağı olan saray binası, hələ orta əsrlərdən xarici alim və səyahətçiləri valeh etmiş «Divanxana», ərəb dilində yazmış olduğu elmi əsərləri hazırda dünya kitabxana və muzeylərini bəzəyən XV əsr saray alimi Seyid Yəhya Bakuvinin türbəsi, «Şərq» portalı, gözəl memarlıq elementləri ilə diqqəti cəlb edən saray məscidi, şahın ailəsinə mənsub türbə, maraqlı şərq memarlıq xüsusiyyətlərini özündə daşıyan qədim saray hamamı, 34 sayda pilləsi olan büllur sulu yeraltı su anbarı – şah ovdanı vardır.

**Səbayıl kitabələri**

Qoruq-muzeyin orta həyətində sərgilənən Səbayıl kitabələrinin Şirvanşahlar Sarayı ilə birbaşa əlaqəsi vardır. Bütün bu daş kitabələr Bakı buxtasından, suyun altından çıxarılmışdır.Bakı buxtasında, sahildən təxminən 300 metr aralı kiçik bir ada vardır. Orta əsrlərdə bu ada üzərində qəsr inşa edilmişdir. Salnamələrin verdiyi məlumatlara görə, 1306-cı ildə dənizdə güclü zəlzələ baş vermiş, suyun səviyyəsi qəflətən yuxarı qalxdığı üçün ada və onun üzərindəki qəsr suyun altında qalmışdır. Yalnız XVIII əsrdən dəniz suyunun səviyyəsi aşağı düşməyə başlamış və bu prosses XX əsrin əvvəllərinə qədər davam etmişdir. 30 il müddətində -- 1939-cu ildən 1969-cu ilə qədər suyun altında arxeoloji tədqiqat işləri aparılmış, məlum olmuşdur ki, uzun əsrlər suyun altında qaldığından qəsr dağılmış, onun təkcə özülləri və epiqrafik abidələri qalmışdır. Onların hündürlüyü 70, eni 25-50, qalınlığı isə 12-15 sm-dir. Suyun altından 699 ədəd epiqrafik abidə tapılmışdır. On beş yarımdairəvi bürclə əhatə olunmuş qəsrin uzunluğu 180, eni isə 40 m-dir. Səbayıl kitabələri qəsrin xarici divarlarının yuxarısında, sanki bir kəmər kimi dövrələnmişdir. Daş kitabələr üzərindəki yazılar ərəb qrafikası ilə əsasən fars dilində həkk edilmişdir.

Qalanın tikilməsi vaxtının I göstəricisi divarın hörgüsündən tapılmış, XIII əsrin I rübündə zərb edilmiş şirvanşah III Fəriburzun sikkələri olmuşdur. Şirvanşah III Fəriburz 1225-1243-cü illərdə hökmranlıq etmişdir və qalanın tikilib başa çatdırılması vaxtı onun hakimiyyət illərinə düşür. Arxeoloji tədqiqatlar zamanı 632 hicri tarixli (1234-1235) yazı parçası tapılmışdır.Məlum olmuşdur ki, qəsrin memarının adı Əbdülməcid, epiqrafik abidələrinin müəllifinin -- xəttatın adı isə ustad Zeynəddin bin Əburəşiddir. Səbayıl qəsri təyinatına görə, dəniz müdafiə qalası olmuşdur.

**Şirvanşahlar türbəsi**

Şirvanşahların ailəvi türbəsi hicri 839-cu, miladi təqvimlə isə 1435-ci ildə Şirvanşah Xəlilullahın tapşırığı ilə memar Məhəmməd Əli tərəfindən Şirvanşahın anası Bikə xanım və 6 yaşlı oğlu Fərrux Yəminin dəfni üçün inşa edilmişdir. Sonradan türbədə Şirvanşah Xəlilullahın özü, zövcəsi Xanikə Sultan, oğlanlarından Məhəmməd İbrahim, Əmir Bəhram, Şeyx Saleh torpağa tapşırılmışdır.

1946-cı ildə abidədə arxeoloji tədqiqat işləri aparılarkən, qəbirlərdən bəzi əşyalar tapılmışdır.Bu əşyalar qazıntı işlərini bilavasitə həyata keçirmiş «Azərbaycan Tarixi» muzeyində saxlanılır.

Türbədə 2002- 2003-cü illərdə bərpa işləri aparılmışdır.

**Saray hamamı**

Şah ailəsinə mənsub olmuş bu hamam 1939-cu ildə aparılmış arxeoloci qazıntı işləri zamanı torpağın altından aşkar edilmişdir. O, 1953-cü ildə qismən torpaqdan təmizlənmiş, 1961 və 2005-ci illərdə isə konservasiya edilmişdir.

Saray hamamı bütün orta əsr şərq hamamlarının səciyyəvi xüsusiyyətini özündə daşımışdır. Hamam yarı-yerin altında, yarı-yerin üstündə inşa edilməklə, qışda istiliyi, yayda isə sərinliyi qoruyub saxlamışdır. Səyahətçilərin şəhadətinə görə, hamam həm daxildən, həm də xaricdən yaxşı bəzədilibmiş. Bunu otaqların birinin divarlarında qorunub saxlanmış əlvan rəngli kaşı parçaları da təsdiqləyir. Su «xəznə» adlanan su tutumu yerlərindən yuyunma otaqlarına bir-birinə paralel şəkildə çəkilmiş 2 saxsı boru vasitəsilə paylanırdı. Bəzi yerlərdə qismən qorunub saxlanmış bu boruların birindən «külxana» otağında qızdırılmış isti su, digərindən isə soyuq su keçirdi. Hamamın isidilməsi yuyunma bölməsinin döşəməsi aaltından, eləcə də divar qalınlığından keçən buxar kanalları vasitəsilə həyata keçirilirdi.

Saray alimi Bədr Şirvaninin «Divan»ına əsasən, hamamın əsası hicri 840-cı (1438-ci) ildə qoyulmuşdur.

**Saray ovdanı**

Şirvanşahlar Sarayı Kompleksinin tərkibinə daxil olan ovdan Abşeron yarmadasındakı ən iri ovdanlardan biridir. Hələ qədimdən xalq arasında «Şah ovdanı» adı ilə məşhur olmuş bu yeraltı su anbarı-ovdan, nəinki sarayı, həm də qədim şəhərin əhalisini içməli su ilə təchiz edirdi.

Su ovdana çeşmələrdən çəkilmiş kəhriz su sistemi vasitəsi ilə daxil olurdu.

Saray şairi Bədr Şirvaninin «Divan»ına əsasən, ovdanın bünövrəsini hicri təqvimi ilə 840-cı ildə, miladi təqvim ilə 1436/37-ci ildə Şirvanşah Sultan Xəlilullah qoydurmuşdur.

***Ədəbiyyat***

1. R. Əfəndi “Azərbaycan incəsənəti ” Bakı -2007
2. R. Əfəndi “ Azərbaycan xalq sənəti” Bakı-1984
3. Ş.Fətullayev-Fiqarov-Bakının memarlıq ensiklopediyası. Bakı-Şərq-Qərb Nəşriyyatı, 2015
4. Ş.Məmmədova. “Azərbaycanın tarixi – memarlıq abidələri”. Bakı – 2008
5. K.Fərhadoğlu. Bakı- İçərişəhər. Bakı “ş-q” “Çinar” çap 2006.
6. G.Məmmədova., Z.Məmmədova. Orta əsrlər memarlığı. Bakı, 2013

## АРХИТЕКТУРНЫЕ ПАМЯТНИКИ ШИРВАНА-АБШЕРОНА В XI-XV ВЕКАХ

***Аллахвердиева Разия Гияс кызы***

***Резюме***

XI-XV века являются плодотворным периодом для ширвано-абшеронского зодчества, которое является третьей по значимости школой азербайджанского зодчества. Поскольку территория Ширванского государст ва богата природным строительным камнем, известняк был единственным материалом, используемым в виде резьбы в этой области в качестве строительного инструмента и украшения зданий. Поэтому стилистические особенности ширвано-абшеронской архитектуры формируются камнем и нанесенным на него орнаментом. Наиболее ценные памятники этого периода находятся в Старом городе Баку.

## ARCHITECTURAL MONUMENTS OF SHIRVAN-ABSHERON IN THE XI-XV CENTURIES

***Allahverdiyeva Raziya Giyas***

***Summary***

The 11th-15th centuries are a fruitful period for the Shirvan-Absheron architecture, which is the third most important school of Azerbaijani architecture. Since the territory of the

Shirvan state is rich in natural building stone, limestone was the only material used in the form of carvings in this area as a building tool and building decoration. Therefore, the stylistic features of the Shirvan-Absheron architecture are formed by a stone and an ornament applied to it. The most valuable monuments of this period are located in the Old City of Baku.

***Rəyçi:dosent Əliyev Əbülfəz***
***Təsviri incəsənət kafedrasının 22 noyabr 2022-ci il tarixli iclasın 04 saylı protokolu***
***Daxil olma tarixi 13 dekabr 2022-ci il***

**UOT:746.**

## QARABAĞ XALÇA MƏKTƏBİ

***Verdiyeva Esmira Hüseyn qızı, Kazımova Səriyyə Eyvaz qızı***
***Gəncə Dövlət Universiteti***
***Verdiyefvaesmira@mail.ru***

**Xülasə:** *Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağda da xalçalar xovlu və xovsuz texnika ilə toxunmaqla iki qrupa bölünür. Birinci qrupa xovsuz texnika ilə toxunan həsir, çətən, buriya, palaz, cecim, kilim, vərni, şəddə, zili, sumax kimi xalçalar daxildir. Qarabağın dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa ilə yanaşı, Daşbulaq, Dovşanlı, Çanaqçı, Tuğ, Tağlar və digər kəndlər əsas rol oynamışlar.*

*Qarabağ xalçalarının kompozisiyası zəngin olub, mürəkkəb kompozisiya quruluşuna malikdir. Qarabağ xalçaları kompozisiyalarının müxtəlifliyi, həndəsi və nəbati eementləri ilə fərqlənir. Başqa tipli xaçala nisbətən də daha böyük ölçülərdə olur. Qarabağ xalçalarında ümumi kompozisiyada əsas yer tutan və ən çox gözə çarpan elementlər bütün xalça kompozisiyalarında olduğu kimi beş qrupa bölünür.*

**Açar sözlər:** Qarabağ xalçaları, xovlu xalçalar, xovsuz xalçalar, kompozisiya, xalça ilmələri
**Key words:** Karabadh carpet,
**Ключевые слова:** Карабахские ковры, ворсововые ковры, без ворсововые ковры, композиция, ковровые петля

Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağda da xalçalar xovlu və xovsuz texnika ilə toxunmaqla iki qrupa bölünür. Birinci qrupa xovsuz texnika ilə toxunan həsir, çətən, buriya, palaz, cecim, kilim, vərni, şəddə, zili, sumax kimi xalçalar daxildir.

Xovsuz xalçaların qrupuna daxil olan xalça və xalça məlulatlarının toxunuşu arğacların əriş iplərinə "sadə keçirtmə", "mürəkkəb keçirtmə" ə sadə dolama üsulu ilə əmələ gəlir. Bu bölgədə zili, vərni, kilim, cecim, şəddə, adı, məfrəş, duz torbası, xurcun, at çulu kimi xovsuz xalçalar da toxunur.

İkinci qrup xovlu xalçalardır. Bu qrupa xalı və xalçalar daxildir. Xovlu xalçaların toxunuşu düyünləmə üsulu, yəni dolama ilmə və yaxud qullabı ilmə ilə əmələ gəlir. "Çələbi", "Malıbəyli", "Açma-yumma", "Balıqlı", "Xançərvənd", "Xanlıq", "Qasımuşağı", "Qoca" adlı xalçalar Qarabağ qrupuna aid məşhur çeşnilərdir

Qarabağın dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa ilə yanaşı, Daşbulaq, Dovşanlı, Çanaqçı, Tuğ, Tağlar və digər kəndlər əsas rol oynamışlar. Dağlıq zonaya nisbətən, şübhəsiz ki, xammalla daha yaxşı təmin olunmuş aran rayonları Cəbrayıl Ağdam, Bərdə,